# Dilçilik İnstitutunda professor İsmayıl Kazımovun 70 illik yubileyi qeyd edilib







**Oktyabrın 15-də AMEA Nəsimi adına Dilçilik İnstitutunda Türk dilləri şöbəsinin müdiri filologiya elmləri doktoru, professor İsmayıl Kazımovun 70 illik yubileyi qeyd olunub.**

AZƏRTAC xəbər verir ki, tədbiri açan elmi müəssisənin direktoru professor Nadir Məmmədli professor İsmayıl Kazımovun gənc yaşlarından bütün fəaliyyətini elmi yaradıcılığa, milli mədəniyyətimizə həsr etdiyini bildirib. "Onun kitab və məqalələrində dərin təhlil, ümumiləşdirmələr, yeniliklər var. Təkcə alimin kitablarının adları ilə tanışlıq zamanı onun yaradıcılığının nə qədər çoxşaxəli olduğunu görürsən", - deyə Nadir Məmmədli vurğulayıb. Qeyd olunub ki, İsmayıl Kazımov "Oğuz qrupu türk dillərində yarımçıq cümlə", "Ahıska türklərinin dili" və "Ahıska toponimləri", "Ahıska türkləri: Dil, tarix və folklor", "Nizami Cəfərov və Azərbaycan türkçülük düşüncəsi", "Yazıçı karyerası: Dilin və sənətin işığında", "Yazıçı: Müasir həyat və gerçəkliklər", "Mahmud Kaşğari "Divanı"nın leksikası", "Müasir türk dillərinin müqayisəli fonetikası", "Müasir türk dillərinin müqayisəli leksikası",







"Müqayisəli sintaksis" (rus dilində), "Türk dillərinin funksional morfologiyası" (üç cilddə), "Müasir Azərbaycan dilinin akademik qrammatikaları" (dörd cilddə) əsərlərinin, monoqrafiya və kitablarının müəllifidir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru filologiya elmləri doktoru, professor Mahirə Hüseynova bildirib ki, İsmayıl Kazımovun elmi yaradıcılığının bütün mərhələləri diqqət çəkir. Onun orta məktəb illərindən bu günə qədər şərəfli həyat yoluna nəzər saldıqda bunu açıq-aydın görmək olur. İsmayıl müəllim ictimai işlərdə də, elmi araşdırmalarda da, təhsil quruculuğunda da əzmkarlıq göstərib, bilik və bacarığını, istək və qabiliyyətini əsirgəməyib. Onun məqsədi xalqımıza, dövlətimizə sədaqətlə xidmət etmək, elmimizin, mədəni irsimizin, dilimizin, türkologiyanın inkişafına töhfələr vermək, yeniliklər gətirmək olub.

Tədbirdə professor İsmayıl Məmmədlinin "İsmayıl Kazımovun yaradıcılığı haqqında fikirlər", professor İlham Tahirovun "İsmayıl Kazımovun Türkoloji qurultay və simpoziumdakı çıxışları", dosent Təhminə İsmayılovanın "İsmayıl Kazımovun Müasir Azərbaycan dili şöbəsindəki fəaliyyəti", filologiya üzrə fəlsəfə doktorları Dilbər Camali "İsmayıl Kazımovun türkoloji görüşləri" və İmanyar Quliyevin "İsmayıl Kazımovun elmi-publisistik yaradıcılığı" mövzularında məruzələri dinlənilib.

Professorlar Sayalı Sadıqova və İlhami Cəfərov, dosent Elçin İsmayılov, elmi işlər üzrə direktor müavini dosent Baba Məhərrəmli çıxışlarında İsmayıl Kazımovun yüksək intellektə, geniş dünyagörüşünə, zəngin mənəviyyata malik alim, təmkinli və müdrik ziyalı olduğunu vurğulayıb, onun dilçilik elminin inkişafına töhfələr verdiyini bildiriblər.

Tədbirdə professor İsmayıl Kazımov Dilçilik İnstitutunun fəxri fərmanı ilə təltif olunub.

*Bakı, 15 oktyabr,*
***AZƏRTAC***